# AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## “STOMATOLOGİYA”

fənni üzrə fəlsəfə doktoru imtahanının

## PROQRAMI

hazırlıq istiqaməti: **“TİBB ELMLƏRİ”**

proqramın istiqaməti: **3226.01 “STOMATOLOGİYA”**

**B A K I - 2022**

**Stomatologiya fənni üzrə fəlsəfə doktoru imtahanının proqramı aşağıdakı müəlliflər tərəfindən hazırlanmışdır**


Azərbaycan Tibb Universitetinin
Ortopedik stomatologiya kafedrasının müdiri,
tibb elmləri doktoru, professor **Pənahov Nazim Adil oğlu**

Azərbaycan Tibb Universitetinin
Uşaq stomatologiyası kafedrasının müdiri,
tibb elmləri doktoru, professor **Əliyeva Rəna Qurban qızı**

Azərbaycan Tibb Universitetinin
Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri,
tibb elmləri doktoru, professor **Rəhimov Çingiz Rəhim oğlu**

Azərbaycan Tibb Universitetinin
Terapevtik stomatologiya kafedrasının müdiri,
tibb elmləri doktoru, professor **Paşayev Ağa Çingiz oğlu**

Azərbaycan Tibb Universitetinin
Terapevtik stomatologiya kafedrasının
dosenti, tibb üzrə fəlsəfə doktoru **Məmmədova Səlimə Əliqulu qızı**

## MƏZMUNU

Ümumi qaydalar:

**Bölmə I.** Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri

**Bölmə II.** Fəlsəfə doktoru imtahanının verilməsi prosesində yoxlanan bacarıqlar

**Bölmə III.** Fəlsəfə doktoru imtahanı proqramının məzmunu

Fəsil 1. Terapevtik stomatologiya

Fəsil 2. Ortopedik stomatologiya

Fəsil 3. Uşaq stomatologiyası

Fəsil 4. Ağız və üz-çənə cərrahiyyəsi

**Bölmə IV.** Tədris-metodik və informasiya təminatı

**Bölmə V.** Qiymətləndirmə meyarları

**Bölmə VI.** Fəlsəfə doktoru imtahanına hazırlaşmaq üçün nümunəvi sualların siyahısı

## ÜMUMİ QAYDALAR

Doktorantura ali təhsil bazasında elmi və elmi-pedaqoji kadr hazırlığını, ixtisas və elmi dərəcələrin yüksəldilməsini təmin edir. Doktorantura təhsili ali təhsilin ən yüksək pilləsi olaraq ali təhsil müəssisələrində və elmi təşkilatlarda yaradılan doktoranturalar vasitəsilə həyata keçirilir.

Stomatologiya fənni "Terapevtik stomatologiya" ixtisası, 3226.01 – "Stomatologiya" istiqaməti proqramı üzrə doktoranturada elmi-pedaqoji kadrlar hazırlığının variativ hissəsinə aid ixtisas fənnidir.

"Stomatologiya" fənninin öyrənilməsi bakalavr və rezidentura hazırlığı üzrə əsas təhsil proqramının mənimsənilməsi prosesində doktorantların yiyələndiyi biliklərin məcmusuna əsaslanır. Proqramın əsasını aşağıdakı fəsillərin əsas müd-dəaları təşkil edir: "Terapevtik stomatologiya", "Ortopedik stomatologiya", "Uşaq stomatologiyası", "Ağız və üz-çənə cərrahiyyəsi".

"Stomatologiya" fənni üzrə fəlsəfə doktoru imtahanına daxil edilmiş sualların mənimsənilməsinin nəticələri doktorantların elmi-tədqiqat və peşəkar fəaliyyətləri üçün həlledici əhəmiyyətə malikdir.

"Stomatologiya" fənni üzrə fəlsəfə doktoru imtahanı tədris planında və təqvim tədris qrafikində müəyyən edilmiş müddətlərdə keçirilir.

"Stomatologiya" fənni üzrə fəlsəfə doktoru imtahanı proqramında fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri, ona olan tələblər müəyyən edilmiş, fəlsəfə doktoru imtahanının məzmunu və qiymətləndirmə meyarları təsvir edil-mişdir.

"Stomatologiya" fənni elmi bazaya malik olan, elmi yaradıcılığın metodologiyası və müasir informasiya texnologiyaları barədə məlumatlı, müstəqil elmi-tədqiqat və elmi-pedaqoji fəaliyyətlə məşğul olmağı bacaran və buna hazır olan şəxsiyyətin formalaşmasına imkan yaradır.

# I BÖLMƏ. ELMİ İXTİSAS ÜZRƏ FƏLSƏFƏ DOKTORU İMTAHANININ HƏDƏFLƏRİ VƏ MƏQSƏDLƏRİ

3226.01 - “Stomatologiya” ixtisası üzrə doktoranturada təhsil alanların hazırlığının hədəfi tibb sahəsində ali ixtisaslı kadrlar hazırlanmasından, bu sahənin elmi və elmi-pedaqoji kadrlarla, həmçinin elmi tədqiqatın müasir metodlarına yiyələnmiş, yüksək ixtisaslı mütəxəssislərlə təmin etməkdən, doktorantın elmi ixtisas fənlərinin öyrənilməsinin yekunlarına əsasən onun bacarıqlarının səviyyəsini aşkar etmək və qiymətləndirməkdən ibarətdir.

**Tədqiqatın məzmunu –** ağız boşluğunun orqanlarının müayinəsi və klinik müşahidələr əsasında patoloji proseslərin, xəstəliklərin, patoloji vəziyyətlərin yaranma səbəbləri və şəraiti, inkişaf mexanizmləri və nəticələrinin müəyyənləşdirilməsi, adekvat müalicə üsullarının işlənib hazırlanması.

**Tədqiqatın obyekti** – Ağız boşluğunun zədələnmiş orqan və toxumaları müxtəlif xəstəlik və patoloji proseslər modelləşdirilmiş laborator heyvanlar. Patoloji proseslərin, xəstəliklərin əmələ gəlmə səbəblərinin və şəraitinin, inkişaf mexanizmlərinin eksperimental və klinik şəraitdə aparılan tədqiqatlar əsasında aydınlaşdırılması klinik tibbin inkişafına, yeni müalicə və profilaktika metodlarının işlənib hazırlanmasına zəmin yaradır.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfi** təhsil alanlar tərəfindən əsas ali təhsil proqramının – 3226.01 - “Stomatologiya” istiqaməti üzrə doktoranturada elmi-pedaqoji kadrlar hazırlanması proqramının mənimsənilməsinin nəticələrinin Dövlət Ali Təhsil Standartlarının müvafiq tələblərinə nə dərəcədə uyğun olduğunu təyin etməkdir.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının məqsədləri:**

− elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanına hazırlıq və fəlsəfə doktoru imtahanının verilməsi prosesində 3226.01 - “Stomatologiya” hazırlıq istiqaməti üzrə Dövlət Ali Təhsıl Standartlarının tələbləri (ali ixtisaslı kadrların hazırlıq səviyyəsi) və təhsil alanların ali təhsil proqramının - doktoranturada elmi-pedaqoji kadrların hazırlanması proqramının mənimsənilməsi prosesində əldə etdikləri faktiki bilik, bacarıq və vərdişlər arasında uyğunluğu təyin etmək;

– doktorantın patoloji proseslərin və xəstəliklərin inkişaf mexanizminin, gedişinin və nəticəsinin ümumi qanunauyğunluqları, ağız boşluğunun orqan və toxumalarının xəstəliklərinin terapiya və profilaktikası prinsipləri haqqında elmi bilikləri nə dərəcədə mənimsədiyini aşkar etmək;

– doktorantın terapevtik, ortopedik, uşaq, cərrahi stomatologiyanın və stomatoloji xəstəliklərin profilaktikası və müalicəsi prinsiplərinin əsaslandırılması bacarığını qiymətləndirmək;

– doktorantın tədqiqat metodlarını müstəqil öyrənmək, müasir elmi nailiy-yətləri təhlil etmək və qiymətləndirmək, əldə olunan bilikləri klinikada tətbiq etməyi bacarmaq; klinik təfəkkürün metodik və metodoloji əsaslarını hazırlamaq qabiliyyətini qiymətləndirmək.

## II BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANININ VERİLMƏSİ PROSESİNDƏ YOXLANAN BACARIQLAR

Doktorantura proqramının ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanı aşağıda sadalanan **bacarıqların** üzə çıxarılmasına yönəldilmişdir:

**Universal bacarıqlar:**

– müasir elmi nailiyyətləri təhlil etmək və qiymətləndirmək, tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yeni ideyalar irəli sürmək qabiliyyəti;

**Ümumi peşəkar bacarıqlar**:

– stomatologiya sahəsində müasir tədqiqat metodlarından və informasiya texnologiyalarından istifadə etməklə müstəqil elmi-tədqiqat fəaliyyətini həyata keçirmək qabiliyyəti.

**Peşəkar bacarıqlar:**

– stomatologiya sahəsində kliniki və eksperimental tədqiqatların metodo-logiyasının mənimsənilməsi;

– elmi tədqiqatlarda stomatologiya elminin nəzəri əsaslarından istifadə etmək qabiliyyəti.

**Fəlsəfə doktoru imtahanında doktorant aşağıda sadalanan bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:**

**Dokorant nəyi bilməlidir:**

- Plomblamada istifadə olunan materiallarının növləri, kimyavi tərkibi, orqanizmə təsiri və istifadə qaydasını
- Növləri,kimyəvi tərkibi, orqanizmə təsiri və istifadə qaydasını
- Qeyri – kariyes zədələnmələr, növləri, diferensial diaqnostikası, müalicə prinsipləri
- Diş çöküntüləri haqqında məlumat, yaranma səbəbləri, təmizlənmə üsulları və profilaktik tədbirləri
- Pulpit və periodontitlərin klinikası və diferensial diaqnostikasını
- Endodontik müalicənin məqsədi, aparılmasına göstərişlər və mərhələlərini
- Manual və fırlanan endodontik alətlər, növləri, istifadə qaydasını
- Kök kanallarının uzunluq ölçüləri, onun təyini üsulları, apeks lokatorun iş prinsipini
- Kök kanallarını genişləndirmə üsulları, əyri kanallarda işləmənin xüsusiyyətləri, "Step Back" və "Crown Down" metodikalarını
- Kanal müalicəsində irriqasiya üçün istifadə olunan alət və preparatlar, irriqasiyanın məqsədi və irriqantların iş prinsipini
- Kök kanallarının doldurulması üsulları, kanal müvəqqəti və daimi doldurulması üçün istifadə olunan materiallar və onların xüsusiyyətləri
- Parodont xəstəlikərinin vəziyyətini göstərən indekslər, onların hesablanma qaydasını
- Parodont xəstəliklərinin müxtəlif növlərində klinik əlamətləri
- Diferensial diaqnostikasını
- Parodont xəstəliklərinin müalicə prinsiplərini
- Oral mukoza xəstəliklər zamanı birincili və ikincili zədələnmə elementləri, patoloji prosesləri
- Ağız boşluğu selikli qişasının travmaları, əlamətləri, etiologiyası, diferensial diaqnostikası və müalicəsini
- Xroniki residivləşən aftoz stomatiti formaları, klinikası, diferensial diaqnostikası və müalicəsini
- Autoimmun xəstəliklər zamanı oral mukozoda yaranan dəyişikliklər, dermatozlar, klinikası, diferensial diaqnostikası
- Dil və dodağın qırmızı haşiyəsinin xəstəlikləri, klinikası, diferensial diaqnostikası və müalicəsi
- Ağız boşluğu selikli qişası və dodağın qırmızı haşiyəsinin prekanserozları, klinika və diferensial diaqnostikası, profilaktikası xüsusiyyətlərini

**Doktorant nəyi bacarmalıdır:**

- kompozit materiallarla bərpanı

— Diş tacının birbaşa (*direct*) və dolayı (*indirect*) üsullarla estetik bərpa texnologiyalarını
— Kariyesin profilaktikasında fərdi və peşəkar gigiyena təlimini
— Anesteziya üsullarının həyata keçirilmə texnikalarını (aplikasion, infiltrasion və naqili anesteziyalar)
— Nisbi və mütləq (kofferdam və s.) izolyasiya vasitələrinin tətbiqini
— Pulpit və periodontitlərin kliniki və rentgenoloji differensasiyasını
— Kanalların manual və rotasion alətlərlə (endomotor) işlənməsini
— Pulpanın diş kanalından vital və devital kənarlaşdırılmasını
— Kök kanallarının müxtəlif üsullarla işlənməsini (*step-back, crown-down)*
— Apekslokatorla işləmə qaydalarını
— Kök kanallarının irriqasiyasını
— Kök kanallarının obturasiyasını
— Ağız boşluğünun gigiyenik statusunun qiymətləndirilməsi, gigiyenik indeksin (Gİ) təyinini
— Parodont toxumalarının klinik vəziyyətinin qiymətləndirilməsini (PMA, Pİ)
— Kataral, hipertrofik və xoralı-nekrotik gingivitin differensial diaqnozlarının qoyulmasını
— Parodont toxumalarının rentgenoloji qiymətləndirilməsini
— Qapalı və açıq küretaj əməliyyatlarının yerinə yetirilmə texnikalarını
— Parodontal sarğıların qoyulmasını
— Ağız boşluğu selikli qişasının kliniki müayinəsini
— Xoradan və ya digər patomorfoloji elementlərdən yaxmanın götürülməsini
— Ağız boşluğunda professional gigiyenik prosedurların (*scaling, air flow*) aparılmasını
— Dərman preparatlarına reseptin tərtib edilməsini
— Xəstəlik tarixi və digər tibbi sənədlərin düzgün doldurulmasını (göndəriş və s.)

**vərdişlər:**

- müxtəlif ədəbiyyat mənbələri ilə işləmək, müvafiq problemlər üzrə informasiya axatarışı aparmaq;

- tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yaranan metodoloji problemləri təhlil etmək;

- müasir elmi nailiyyətləri, o cümlədən fənlərarası sahələrdə tədqiqat və praktiki xarakterli məsələlərin həlli üzrə fəaliyyətin nəticələrini tənqidi mövqedən təhlil etmək və qiymətləndirmək;

- müstəqil elmi tədqiqat aparmaq qabiliyyəti;

- şifahi və yazılı nitqini məntiqi cəhətdən düzgün, əsaslandırılmış və aydın şəkildə qurmaq; fənlərarası qarşılıqlı təsiri həyata keçirmək, tədqiqat məsələlərinin həlli üçün perspektivli nəzəri-metodoloji və elmi-praktik yanaşmaları inkişaf etdirmək qabiliyyəti;

-tədqiqat işinin müxtəlif metodları;

-statistik göstəricilərin qiymətləndirilməsi metodikası, xronoloji təhlili metodları.

## III BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANI PROQRAMININ MƏZMUNU

## FƏSİL 1. TERAPEVTİK STOMATOLOGİYAYA GİRİŞ

Terapevtik stomatologiya – diş, dişətrafı toxumalar və ağız boşluğu selikli qişa xəstəliklərinin etiologiyasını, patogenezini, diaqnostikasını, müalicəsini və profilaktika metodlarını öyrənir.

Stomatoloji fənnlər arasında terapevtik stomatologiya əhəmiyyətli və aparıcı fənnlərdən biridir. Bu fənn o nəinki dişlərin itirilməsinə səbəb olan stomatoloji xəstəliklərin həmçinin, kariyes və parodont xəstəliklərinin müalicə problemləri ilə, həm də həmin xəstəliklərin profilaktikası ilə məşğul olur.

**Fənnin məqsədi:** stomatoloqun cərrahi müdaxilə tələb olunmayan bütün stomatoloji xəstəlikləri müalicə etməsini təmin etmək, həmçinin diş, onu əhatə edən toxumaların və selikli qişa patologiyalarının diaqnostika, müalicə və profilaktikası üsullarını öyrətməkdir.

## FƏSİL 2. Dişlərin xəstəlikləri

Qeyri-kariyes mənşəli xəstəliklər.

Dişlərin travması. Klinikası differensial diaqnostika və müalicəsi.

Diş rənginin korreksiyası.

Kariyesin klinikası, morfologiyası. Profilaktika. Kariyes prosesinin inkişafının müxtəlif mərhələlərində diş toxumalarının morfoloji dəyişiklikləri (ləkə mərhələsi, səthi, orta, dərin), işıq, elektron, polyarizasiya mikroskopunun şəkilləri əsasında ÜST təsnifatı.

Kariyesinin müalicəsi. Kariyesin invaziv və ya «cərrahi» müalicəsi.

Blek təsnifatı əsasında I – VI sinif boşluqların preparasiyası və plomblanmaya hazırlanması. Preparasiya aparmaq məqsədilə aparılan premedikasiya və yerli anesteziya üsulları. Müalicəvi və izoləedici araqatların tətbiqinə göstərişlər. Kariyes boşluqlarına plombların seçilməsi və qoyulması qaydaları. Dişlərin rənginin təyini və müasir estetik restavrasiya. Vinirlər, vinir altına yonulma qaydası. Restavrasiyada tunel metodu, «Sendviç» texnologiyası. Preparasiya və plomblamanın gedişində buraxılan səhvlər (yatrogen səhvlər) və ağırlaşmaları.

Pulpitin təsnifatı – ÜST, MTSİ.

Klinika, differensial diaqnostika, elektroodontometriya. Pulpitin müalicə üsulları. Ağrısızlaşdırma. Kəskin ağrılar və travma zamanı təxirə salınmaz tədbirlər.

Pulpanın tam saxlanma metodu. Göstəriş, əks göstəriş, metodika, dərman preparatları. Pulpanın vital amputasiya üsulu. Devital ekstirpasiya üsulu – göstəriş, tətbiq üsulu.

Kök kanallarının obturasiyası: lateral kondensasiya, termokondensasiya, termofil sistemi.

Bu üsulların müqayisəli qiymətləndirilməsi, səhvlər və ağırlaşmalar.

Periodontitlərin təsnifatı (Patoanatomik, kliniki, ÜST). Müxtəlif formalı periodontitlərin patoloji histologiyası. Periodontitlərin ayrı-ayrı formaları, diaqnostikası və differensial diaqnostikası. Rentgenoloji müayinə. Kəskin periodontitlər zamanı təxirəsalınmaz yardım. Periodontitlərin endodontik müalicəsi.

Periodontitlərin müalicəsi zamanı ağırlaşmalar və onların aradan qaldırılması.

**Parodont xəstəlikləri**

Parodont xəstəliklərinin müayinə metodları və diaqnostikası. Kliniki müayinə metodları:

Ağızdaxili kontakt rentgenoqrafiya, panoram rentgenoqrafiya, ortopantomoqrafiya, polyaroqrafiya, kapilyarskopiya, reoparodontoqrafiya, fotopletizmoqrafiya, biomikroskopiya, exoosteometriya, pH-ın təyini, leykositlərin miqrasiyası, mikrobioloji və histoloji müayinələr. Xəstənin terapevt-, ortoped-, cərrah-stomatoloq və digər ixtisas həkimlərinin kompleks müayinəsinin mahiyyəti.

Gingivit. Kataral, hipertrofik və xoralı formaları. Etiologiya və patogenezləri. Gingivitin etiologiyasında yerli və ümumi faktorların rolu. Yayılması, klinikası, diferensial diaqnostikası. Gingivitlərin müxtəlif kliniki formalarının müalicəsi.

Parodontit: Kəskin, xroniki, kəskinləşmiş xroniki, remissiya mərhələsi, lokal və yayılmış formaları. Etiologiya, patogenez, patomorfologiya.

Parodontitin atipik formaları. Yüngül, orta və ağır dərəcəli, lokal və genarilizə olunmuş formaları. Kompleks müalicənin prinsipləri (medikamentoz, cərrahi, ortodontik, ortopedik müalicə). Parodontitin ağırlıq dərəcəsindən asılı olaraq yerli və ya ümumi müalicənin aparılmasına göstəriş. Kompleks müalicə zamanı fiziki üsuldan istifadə edilməsi

Parodontoz və parodontun idiopatik xəstəlikləri (parodontoliz), parodontomalar. Etiologiyaları, patogenezləri, patomorfologiyaları. Parodontozun klinikası, diferensial diaqnostikası. Ümumi və yerli müalicə üsulları.

Parodontoliz və ya parodontun idiopatik xəstəlikləri; parodont toxumasında təzahür edən simptom və sindromlar.

Parodontomalar (diş ətinin fibromatozu, epulis və parodontal kista).

Parodont xəstəliklərinin profilaktikası. Parodont xəstəliklərinin müalicəsi və profilaktikasında ağız boşluğunun gigiyenasının əhəmiyyəti. Parodont xəstəliyi olan insanlara müalicə-profilaktika yardımının əhəmiyyəti və təşkili. Dispanserləşdirmə.

**Ağız boşluğunun selikli qişa xəstəlikləri**

Selikli qişa xəstəlikləri zamanı xəstələrin müayinə üsulları. Birincili və ikincili zədələnmə elementləri.

ABSQ-nin travmaları: Mexaniki, kimyəvi, fiziki zədələnmələr. Leykoplagiya.

Allergik xəstəliklər: Anafilaktik şok; Kvinke ödemi: patogenez, klinika-differensial diaqnostika və təcili yardım. Medikamentoz stomatitlər. Çoxformalı eksudativ eritem, xroniki residivləşən aftoz stomatit.

Dermatozlar zamanı selikli qişanın dəyişikləri (akantolitik pemfiqus, qeyri-akantolitik pemfiqus, qırmızı yastı dəmrov, qırmızı qurdeşənəyi və s.).

Dodağın xəstəlikləri və dil xəstəlikləri. Dilin anomaliyaları və xəstəlikləri. Coğrafi dil, rombabənzər, büküşlü dil, xovlu dil (tüklü və ya qara).

Dodağın xəstəlikləri: eksfoliativ, ekzematoz, atopik qlandulyar, aktinik, meteroloji xeylitlər. Dodağın xronik çatları.

ABSQ-nin və dodaqın qırmızı haşiyəsinin xərçəngönü xəstəlikləri.

## BÖLMƏ VI. FƏLSƏFƏ DOKTORU İMTAHANINA HAZIRLAŞMAQ ÜÇÜN NÜMUNƏVİ SUALLARIN SİYAHISI

1.Stomatoloji xəstəliklərin yayılma və intensivliyinin öyrənilmə üsulları.
2.Qeyri-karioz mənşəli xəstəliklər.
3.Karyes boşluqlarının preparasiyasının əsas prinsipləri, boşluqların plomblanmaya hazırlanması
4.Kariyes boşluqlarının plomblanmasının ümumi prinsipləri.
5.Kariyesin profilaktikası.
6.Pulpitlərin təsnifatı.
7.Kəskin pulpitin klinikası, müalicəsi.
8.Kəskin zirvə periodontiti.
9.Xronik qranulomatoz periodontit.
10.Xronik fibroz periodontit.
11.Endodontik müalicədə istifadə olunan alətlər.
12.Kanalların genişləndirmə üsulları. İrriqasiya və obturasiya prinsipləri.
13.Nekrotik pulpitin klinikası, differensial diaqnostikası, müalicəsi.
14.Parodont xəstəliklərinin cərrahi müalicəsi. Gingivotomiya, gingivoektomiya, küretaj dilim əməliyyatı.
15.Parodont xəstəliklərində dişlərin şinalanma üsulları.
16.Parodont xəstəliklərinin yerli və ümumi müalicə prinsipləri.
17.Parodont toxumalarının xəstəliklərinin profilaktikası.
18.Oral mukozanın travmatik zədələnmələri.
19.Xronik residivləşən aftoz stomatit.
20.Oral mukozanın xərçəngönü xəstəlikləri.
21.Oral mukoza xəstəliklərinin profilaktikası.